# "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə"Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 251-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında","Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 251-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 577 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 66 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Həmin Fərmanla təsdiq edilmiş Əlavə I - "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin təsviri" üzrə:

1.1.1. 1-ci hissədən "(İCAO-nun)" sözləri çıxarılsın;

1.1.2. 2-ci hissə üzrə:

1.1.2.1. ikinci cümlədən "(İCAO-nun)" sözləri çıxarılsın;

1.1.2.2. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Fotoşəklin altında kart giriş nömrəsini (cardaccessnumber) ifadə edən "CAN" abreviaturası qeyd olunur.";

1.1.3. 3-cü hissə üzrə:

1.1.3.1. 3.1-ci bəndə "olunur" sözündən sonra ", habelə xüsusi işarənin altında iki latın hərfindən və yeddi rəqəmdən ibarət vəsiqə nömrəsi, vəsiqənin verilmə tarixi və vəsiqə sahibinin kiçildilmiş təsvirini əks etdirən "Dəyişən lazer təsvir" yerləşdirilir" sözləri əlavə edilsin;

1.1.3.2. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. orta hissəsində "SOYADI/SURNAME", "ADI/GIVEN NAME", "ATASININ ADI/PATRONYMIC", "DOĞULDUĞU TARİX/DATE OF BIRTH", "VƏTƏNDAŞLIĞI/NATIONALITY", "VERİLMƏ TARİXİ/DATE OF ISSUE", "ETİBARLILIQ MÜDDƏTİ/DATE OF EXPIRY", "Dəyişən lazer təsvir"in aşağı hissəsində "CİNSİ/SEX", "FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ/PERSONAL NO", "VƏSİQƏ SAHİBİNİN İMZASI/HOLDER'S SIGNATURE" sözləri yazılır.";

1.1.4. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Vəsiqənin arxa tərəfinin aşağı hissəsində Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinə uyğun olaraq maşınla oxuna bilən üçzolaqlı optik nəzarət oxunuş hissəsi, sol hissəsinin mərkəzində vəsiqə sahibinin kiçildilmiş təsvirini əks etdirən "Dəyişən lazer təsvir" yerləşdirilir, həmin təsvirin sağ hissəsində "ÜNVAN/ADDRESS", "DOĞULDUĞU YER/PLACE OF BIRTH" və "QAN QRUPU/BLOOD GROUP" sözləri yazılır.";

1.1.5. 6-cı hissədən "(İCAO-nun)" sözləri çıxarılsın;

1.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə III - "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin nümunəsi" yeni redaksiyada verilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1148 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1.2-ci hissə üzrə:

2.1.1.2.10-cu bənddən "(İCAO-nun)" sözləri çıxarılsın;

2.1.2.2.12-ci bəndə"yer, " sözündən sonra " ünvanı (yaşayış yeri),"sözləri, "identifikasiya nömrəsi," sözlərindən sonra "kart giriş nömrəsi," sözləri, "vəsiqənin nömrəsi" sözlərindən sonra ", verilmə tarixi" sözləri əlavə edilsin və həmin bənddən "(İCAO-nun)" sözləri çıxarılsın;

2.1.3. 2.13-cü bəndin ikinci cümləsindən "(İCAO-nun)" sözləri çıxarılsın;

2.1.4. 2.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.14. Şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına (çipə) aşağıdakı məlumatlar daxil edilir:

2.14.1. bu Əsasnamənin 2.12-ci bəndində göstərilən məlumatlardan - vətəndaşın soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi, kart giriş nömrəsi, vəsiqənin verilmə tarixi, fotoşəkli və 15 yaşı tamam olmuş vətəndaşın şəxsi imzası;

2.14.2. vətəndaş soyadını və (və ya) adını dəyişdiribsə, əvvəlki soyadı və (və ya) adı;

2.14.3. vəsiqəni verən orqanın adı;

2.14.4. sənədin tipi;

2.14.5. vəsiqənin fərdiləşdirilməsinin tarixi və vaxtı;

2.14.6. fərdiləşdirmə sisteminin seriya nömrəsi;

2.14.7. Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinə uyğun olaraq müvafiq sertifikatlar;

2.14.8. vəsiqə sahibinin əl-barmaq izləri (hər əlindən bir barmaq izi).";

2.1.5. 2.14-1-ci bənd 2.14-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.14-1-ci bənd əlavə edilsin:

"2.14-1.Vətəndaşın şəxsiyyət vəsiqəsi ilə bağlı İAMAS-da olan və müvafiq dövlət informasiya sistemlərindən (ehtiyatlarından) ötürülən məlumatlardan aşağıdakılar İAMAS-da kriptoqrafik vasitələrlə mühafizə olunaraq saxlanılır:

2.14-1.1. vətəndaşın ailə vəziyyəti, boyu və hərbi vəzifəsi;

2.14-1.2. vətəndaşın gözlərinin rəngi;

2.14-1.3.vətəndaşın valideynlərinin soyadı, adı, atasının adı, vətəndaşın qanuni nümayəndəsinin soyadı, adı, atasının adı və əlaqə məlumatları;

2.14-1.4. vətəndaşın ərinin (arvadının) soyadı və adı (nikaha daxil olarkən soyadını dəyişdiribsə, nikahdan əvvəlki soyadı da göstərilir);

2.14-1.5. vətəndaşın uşaqlarının soyadı və adı;

2.14-1.6. vətəndaşın uşaqlarının doğum tarixi və cinsi.";

2.1.6. 2.14-2-ci bənddə "vətəndaşın ailə vəziyyəti, boyu, hərbi vəzifəsi,vətəndaşın gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatlar, elektron imza yaratma və elektron imzanı yoxlama məlumatları, habelə bu Əsasnamənin 2.14.4-cü, 2.14.6-cı, 2.14.7-ci və 2.14.13-cü" sözləri "bu Əsasnamənin 2.14.8-ci, 2.14-1.1-ci, 2.14-1.2-ci, 2.14-1.4 - 2.14-1.6-cı" sözləri ilə əvəz edilsin;

2.1.7. 2.16-2.17-ci bəndlər ləğv edilsin;

2.1.8. 2.18-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.18. Şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına (çipə) daxil edilən və İAMAS-da toplanılan, bu Əsasnamənin 2.14.1 -2.14.8-ci, 2.14-1.2-ci və 2.14-1.6-cı yarımbəndlərində nəzərdə tutulan məlumatlar dəyişdirilməyən, bu Əsasnamənin 2.14-1.1-ci, 2.14-1.3-2.14-1.5-ci yarımbəndlərində nəzərdə tutulan məlumatlar isə bu Əsasnamənin 2.29-cu bəndində göstərilən dövlət orqanları tərəfindən dəyişdirilə bilən (aktuallaşdırılan) məlumatlardır.";

2.1.9. 2.19-cu bənddə "2.14.3-cü, 2.14.4-cü, 2.14.8-ci-2.14.11-2-ci" sözləri "2.14.3-2.14.6-cı, 2.14-1.1-ci, 2.14-1.2-ci" sözləri ilə əvəz edilsin və həmin bənddən "imza yaratma məlumatları və" sözləri çıxarılsın;

2.1.10. 2.20-ci bənddə "2.14.1-ci - 2.14.11-2-ci" sözləri "2.14.1-2.14.6-cı və 2.14-1.1- 2.14-1.6-cı" sözləri ilə əvəz edilsin və həmin bənddən "imza yaratma məlumatları və" sözləri çıxarılsın;

2.1.11. 2.21-ci bənddə "bəndində" sözü "və 2.14-1-ci bəndlərində" sözləri ilə əvəz edilsin və həmin bənddən "(imza yaratma məlumatları istisna olmaqla)" sözləri çıxarılsın;

2.1.12. 2.22-ci bəndin ikinci cümləsinə "atasının adı" sözlərindən sonra ", ünvanı (yaşayış yeri)" sözləri əlavə edilsin;

2.1.13. 2.23-cü bəndə "atasının adının" sözlərindən sonra ", ünvanının (yaşayış yerinin)" sözləri əlavə edilsin;

2.1.14. aşağıdakı məzmunda 2.23.1-1-ci yarımbənd əlavə edilsin:

"2.23.1-1. şəxsiyyət vəsiqəsinin üzərində olan məlumatlar dəyişdikdə, həmin dəyişiklikləri təsdiq edən sənəd;";

2.1.15. 2.29-cu bəndin birinci abzasına "(çipdə)" sözündən sonra "və İAMAS-da" sözləri əlavə edilsin;

2.1.16. 2.29.1-ci yarımbənddən "yaşadığı yer və" sözləri çıxarılsın;

2.1.17. 2.29.2-ci yarımbənddə "2.14.5-ci - 2.14.7-ci" sözləri "2.14-1.3-2.14-1.5-ci" sözləri ilə əvəz edilsin;

2.1.18. 2.29.4-cü yarımbənd ləğv edilsin;

2.2. Əsasnaməyə 1 nömrəli Əlavə- "Azərbaycan Respublikası vətəndaşına şəxsiyyət vəsiqəsinin verilməsi haqqında Ərizə-Anket" üzrə:

2.2.1. 1-ci hissə üzrə:

2.2.1.1. 1.1.1.6-cı abzasda "Yaşayış yeri" sözləri "Ünvanı (yaşayış yeri)" sözləri ilə əvəz edilsin;

2.2.1.2. aşağıdakı məzmunda 1.1.1.16-cı abzas əlavə edilsin:

"1.1.1.16. Fərdi identifikasiya nömrəsi";

2.2.1.3. 1.1.3.4-cü abzasda "Şəxsiyyətini təsdiq edən sənədin" sözləri "Fərdi identifikasiya" sözləri ilə əvəz edilsin;

2.2.1.4. 1.1.3-1-ci yarımbənd ləğv edilsin;

2.2.2.2.1.3.4-cü abzasda "vətəndaşı övladlığa götürən, vətəndaşın himayəçisi və ya qəyyumu" sözləri "vətəndaşın qanuni nümayəndəsi" sözləri ilə əvəz edilsin;

2.3. Əsasnaməyə 2 nömrəli Əlavə - "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi haqqında Ərizə-Anket" üzrə:

2.3.1. 1-ci hissə üzrə:

2.3.1.1. 1.1.1.6-cı abzasda "Yaşayış yeri" sözləri "Ünvanı (yaşayış yeri)" sözləri ilə əvəz edilsin;

2.3.1.2. aşağıdakı məzmunda 1.1.1.16-cı abzas əlavə edilsin:

"1.1.1.16. Fərdi identifikasiya nömrəsi";

2.3.1.3.1.1.3.4-cü abzasda "Şəxsiyyətini təsdiq edən sənədin" sözləri "Fərdi identifikasiya" sözləri ilə əvəz edilsin;

2.3.1.4.1.1.3-1-ci yarımbənd ləğv edilsin;

2.3.2. 2-ci hissə üzrə:

2.3.2.1. aşağıdakı məzmunda 2.1.3.1-1-ci abzas əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 2.1.3.1-1.Şəxsiyyət vəsiqəsinin üzərində olan məlumatlar dəyişdikdə, bunu təsdiq edən sənəd | | | |

2.3.2.2. 2.1.3.2-ci abzasda "vətəndaşı övladlığa götürən, vətəndaşın himayəçisi və ya qəyyumu" sözləri "vətəndaşın qanuni nümayəndəsi" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında","Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 251-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2025-ci il*

**Əlavə III**

## Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin NÜMUNƏSİ

**Üz tərəfi**




**Arxa tərəfi**

